# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir


**Məqalə KİVDF-nin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti üzrə həyata keçirilən layihə çərçivəsində hazırlanmışdır**

KİVDF

# Regionlarda taxılçılığın inkişafı diqqət mərkəzində saxlanılır

*İndiyədək 19 rayonda 40 min hektardan artıq sahədə 29 iri fermer taxılçılıq təsərrüfatının yaradılması başa çatıb və məhsuldarlıq hər hektardan 58-60 sentner təşkil edir*

Yaranmış qlobal çətinliklər fonunda ölkəmizdə kənd təsərrüfatının inkişafı ilk növbədə əhalinin ərzaq təhlükəsizliyinin tam yerli istehsal hesabına təmin edilməsi baxımından böyük önəm daşıyır. Qeyd etmək yerinə düşər ki, son illərdə ölkəmizdə ərzaq təminatının daxili istehsal hesabına təmin olunması istiqamətində davamlı tədbirlər həyata keçirilir və eyni zamanda, normativ-hüquqi baza möhkəmləndirilir. Respublikamızda Prezident İlham Əliyevin 25 avqust 2008-ci il tarixli müvafiq Sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" qəbul edilib. Dövlət başçısı 2014-cü il yanvarın 16-da isə "Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Sənəddə respublikanın ərzaq təhlükəsizliyi ilə bağlı qəbul edilən Dövlət Proqramının icrası sahəsində əlavə tədbirlərin görülməsi, kənd təsərrüfatı məhsullarının ixracının artırılması, aqrar sahədə istehsalçıların və istehlakçıların maraqlarının qorunması, ərzaq bazarının səmərəli fəaliyyətinin təşkil edilməsi ilə bağlı qarşıya mühüm vəzifələr qoyulub.

Həyata keçirilən bu və digər tədbirlər nəticəsində ölkəmizin aqrar sektorunda ərzaq məhsulları istehsalı imkanları əhəmiyyətli dərəcədə artıb. Respublikamızda əhalinin üzümə, kartofa, tərəvəzə olan tələbatının yerli istehsal hesabına təmin olunmasının səviyyəsinin 100 faizə yüksəlməsi məmnunluq doğurur. Bundan başqa, artıq respublikamızda heyvandarlıq məhsulları ilə özünütəminat səviyyəsi də 100 faizə çatmaq üzrədir. Yeni təsərrüfat subyektlərinin, o cümlədən də aqroparkların yaradılması ölkənin ərzaq təminatının möhkəmləndirilməsinə olduqca müsbət təsir göstərəcək. Respublikanın ayrı-ayrı bölgələrində aqroparkların yaradılmasına başlanılıb və bu proses davam etdiriləcək. Aqroparklarda müasir istehsal, emal və infrastruktur müəssisələrinin yaradılmasına dövlət tərəfindən 43 milyon manat güzəştli kredit verilib.

## ƏRZAQ TƏMİNATINDA VACİB POZİSİYALARDAN OLAN TAXILÇILIQ İNTENSİV METODLARLA İNKİŞAF ETDİRİLİR

Ölkənin etibarlı ərzaq təminatına nail olunmasında taxılçılıq strateji əhəmiyyət daşıyır. Belə ki, taxılçılıq əhalinin əsas ərzaq məhsulu sayılan çörəyə və digər un məmulatlarına tələbatını ödəməklə yanaşı, eyni zamanda, quşçuluq və maldarlıq üçün də yem bazası rolunu oynayır. Prezident İlham Əliyev ölkəmizdə taxıla olan tələbatın daxili istehsal hesabına ödənilməsinin hazırkı 65 faizdən yaxın perspektivdə 100 faizə çatdırılması ilə bağlı vəzifə qoyub. Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqində bununla bağlı fikirlərini ifadə edərək deyib: **"Azərbaycana hər il bir milyon tondan çox taxıl, buğda gətirilir. Ona görə indi yeni layihələr işə düşür və çalışmalıyıq ki, biz özümüzü 100 faiz səviyyəsində taxılla təmin edək. Bu, mümkündür".**

Qarşıya qoyulan strateji məqsədə çatmaq üçün torpaqlardan səmərəli şəkildə istifadə edilməsi əsas vəzifə kimi müəyyənləşdirilib. Qabaqcıl təcrübənin, intensiv metodların tətbiqi taxılçılıqda istehsalın genişlənməsinə müsbət təsir göstərən vacib amillərdir. Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumatda bildirilir ki, intensiv metodlardan istifadə edərək məhsuldarlığı artırmaqla ölkədə taxıl istehsalını əhəmiyyətli dərəcədə genişləndirmək mümkündür. Bunun üçün respublika üzrə əkin sahəsini 700-800 min hektar ətrafında saxlamaqla məhsuldarlığı hektardan 4-4,5 tona çatdırmaq kifayətdir.



Qeyd edək ki, respublikamızın regionlarında taxılçılıq sahəsində dünya miqyasında təsdiqini tapan qabaqcıl təcrübənin tətbiqi, o cümlədən də iri fermer təsərrüfatlarının yaradılması uğurla həyata keçirilir. Ölkənin müxtəlif bölgələrində iri fermer təsərrüfatlarının yaradılması Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bir neçə il bundan qabaq start verilib. Dövlət Torpaq Fondunun hesabına yaradılan iri fermer təsərrüfatlarının fəaliyyətə başlaması ilə ölkəmizdə, əslində, yeni bir kənd təsərrüfatı sisteminin formalaşdığını söyləmək mümkündür. İri fermer təsərrüfatlarının yaradılması respublikamızda kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasını stimullaşdırmaq və əhalinin ərzaq təminatını yerli istehsal hesabına daha da yaxşılaşdırmaq məqsədi daşıyır. Dövlət başçısının tapşırığına uyğun olaraq hazırda Ağcabədi, Beyləqan, Kürdəmir, Ağsu, İmişli, Hacıqabul, Cəlilabad, Salyan, Xaçmaz, Füzuli, Saatlı və digər rayonlarda iri fermer təsərrüfatları yaradılır. İndiyədək 19 rayonda 40 min hektardan artıq sahədə 29 iri fermer taxılçılıq təsərrüfatının yaradılması başa çatıb və məhsuldarlıq hər hektardan 58-60 sentner təşkil edir. Regionlarda taxılçılıq təsərrüfatlarında həyata keçirilən zəruri tədbirlərin nəticəsidir ki, son illərdə taxıl istehsalında davamlı olaraq artım müşahidə edilir. Ölkə miqyasında 2014-cü ildə 2 milyon 300 min ton, 2015-ci ildə isə 2 milyon 900 min ton taxıl istehsal olunub. 2016-cı ilin taxıl yığımı mövsümündə respublika üzrə 927,4 min hektar sahədə biçin böyük uğurla başa çatdırılıb. Hazırda istehsal edilmiş taxılın satışında və ayrı-ayrı dəyirmanlar tərəfindən tədarükündə heç bir problem müşahidə olunmur. Proqnozlara görə, cari ildə ölkədə tədarük olunan taxılın həcmi 3 milyon ton həcmində olacaq.

## İLK ÖZƏL PİLOT TAXILÇILIQ TƏSƏRRÜFATLARININ UĞURLARI YAXŞI NÜMUNƏDİR

Respublikamızda yaradılan ilk özəl pilot taxılçılıq təsərrüfatlarının uğurları bütün ölkə üçün yaxşı nümunədir. Respublikada ilk özəl iri pilot taxılçılıq təsərrüfatı olan "Qarabağ Taxıl" MMC 2012-ci ildə Prezident İlham Əliyevin iri özəl taxılçılıq təsərrüfatlarının yaradılması barədə verdiyi tapşırıqlarının icrasının təmin edilməsi məqsədi ilə Ağcabədi və Beyləqan rayonlarının ərazilərində dövlət torpaq fondu hesabına 4800 hektar sahədə yaradılıb. Təsərrüfatın fəaliyyətinin təmin edilməsi üçün dövlət tərəfindən ərazidə lazımi infrastruktur yaradılıb, meliorasiya-irriqasiya, yolların çəkilməsi və enerji təminatı həyata keçirilib.

Təsərrüfatda dünyanın ən son texnologiyası tətbiq olunub. 64 ədəd müasir suvarma sistemi - pivot quraşdırılıb, 5 nasosxana, 5,5 milyon manat dəyərində 20 min ton tutumlu müasir taxıl anbarı, 6 min tonluq soyuducu anbar kompleksləri, saatda 100 ton qurutma gücünə malik qurutducu qurğu inşa edilib. Təsərrüfata 4,2 milyon dollar dəyərində 20-dək müxtəlif adda kənd təsərrüfat texnikası alınıb. Bu müddətdə təsərrüfat istər kənd təsərrüfatı texnikaları seçimində, istər toxum alınmasında, istərsə də gübrə və pestisidlərin əldə edilməsində dünyanın ən qabaqcıl şirkətləri ilə əməkdaşlıq edib.

Görülən işlər sayəsində taxıl istehsalında yüksək məhsuldarlığa nail olunub. Belə ki, 2012-ci ilin payızında əkilən taxıldan 2013-cü ildə ölkə üzrə rekord məhsuldarlıq - hektara 55,6 sentner məhsul əldə edilib. 2015-ci ildə ümumi dəyəri 11 milyon manatdan çox olan 60,5 min ton məhsul, o cümlədən 26 min ton qarğıdalı, 25 min tona yaxın siloluq qarğıdalı, 6 min tondan çox buğda, 3 min tona yaxın saman, 690 ton arpa, min tona yaxın soya istehsal olunub. 2016-cı ildə 26 min ton qarğıdalı, 600 tondan çox buğda, 700 tona yaxın arpa, 5 min ton soya istehsalı proqnozlaşdırılır.

Ağcabədi rayonunun Hindarx qəsəbəsi ərazisində "AzAqroTaxıl" MMC tərəfindən yaradılan özəl taxılçılıq təsərrüfatı isə 1500 hektara yaxın sahəni əhatə edir. Təsərrüfatda yeraltı su boruları çəkilib, süni yağış yağdırma üsulu ilə müasir suvarma sistemi quraşdırılıb. Təsərrüfatdaxili hərəkət yolları, su və elektrik xətləri çəkilib. Təsərrüfatın suvarma suyu ilə təminatı yeni inşa edilmiş nasos stansiyası vasitəsilə həyata keçirilir.

Cari ildə aqrotexniki qaydalara əməl olunmaqla bərk buğda ilə yanaşı qarğıdalı, çuğundur, pambıq da becərilir. Növbəli əkin sisteminin tətbiq edildiyi təsərrüfatda taxıl becərilməsi aqrotexniki qaydalara uyğun aparılır. Becərilmə zamanı məhsuldarlığa və keyfiyyətə təsir edən xəstəlik və zərərvericilərə, alaq otlarına qarşı vaxtlı-vaxtında mübarizə tədbirləri görülür.

İyun ayında havaların yağmurlu keçməsi məhsuldarlığa mənfi təsir göstərsə də, hər hektardan orta hesabla 45-50 sentner taxıl götürülüb. Növbəti illərdə hektardan orta məhsuldarlığın 60-70 sentnerə çatdırılması qarşıya hədəf qoyulub.

## YENİ TAXIL SORTLARININ YARADILMASI VƏ TOXUMÇULUĞUN İNKİŞAFI MƏHSULDARLIĞIN ARTMASINA MÜSBƏT TƏSİR GÖSTƏRİR

Taxılçılıqda məhsuldarlığı artırmaq üçün zəruri amillərdən biri də yeni taxıl sortlarının yaradılması, onların rayonlaşdırılması, eləcə də toxumçuluğun inkişafı ilə bağlıdır. Məlum olduğu kimi, Prezident İlham Əliyev 2015-ci il 2 mart tarixində "Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncamda ölkədə ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi məqsədi ilə yüksək məhsuldarlığa malik və quraqlığadavamlı yeni növ toxumlara tələbat yarandığı vurğulanır. Sərəncamla ölkədə məhsul istehsalçılarının yüksək məhsuldar toxumlara tələbatının dolğun şəkildə ödənilməsi məqsədi ilə Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində Dövlət Toxum Fondunun yaradılması qərara alınıb. Dövlət başçısının imzaladığı bu sənədə əsasən, Nazirlər Kabinetinə Dövlət Toxum Fondunun fəaliyyətinin təmin edilməsi, habelə yüksək məhsuldar toxumların istehsalının və tədarükünün həyata keçirilməsini stimullaşdırmaq üçün müvafiq tədbirlər həyata keçirmək tapşırılıb. Toxumçuluğun inkişafı və daha məhsuldar sortların yetişdirilməsi ilə bağlı qarşıya qoyulan vəzifələrə uyğun olaraq Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi, nazirliyin yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərin İdarə Edilməsi üzrə Dövlət Xidməti və Əkinçilik Elmi-Tədqiqat İnstitutu tərəfindən Qobustan rayonunda "Dəmyə bölgələr üçün yeni taxıl sortlarının yaradılması və toxumçuluğun təşkili" mövzusunda elmi-praktik seminar keçirilib. Seminarda vurğulanıb ki, bu gün tez yetişən sortlar böyük səmərə verir. "Qobustan", yeni rayonlaşdırılan "Qızıl buğda" sortları bu baxımdan çox sərfəlidir. Quraqlığa davamlı olan həmin buğda sortları vegetasiya dövrünü tez qurtarır. Əlbəttə, məhsuldarlıq üçün qara herik də çox vacibdir.


**(davamı növbəti sayımızda)**


**Mübariz ABDULLAYEV**


Təsisçi
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Hikmət BABAOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyov - 66

Telefonlar:
**498-78-03, 498-82-21**
**498-81-24, 498-19-84**

İndeks:
Lisenziya
**Tiraj:**

"Kapital Bank"ın N
**h/h** - 33080019
**kod** -
**VÖEN** - 1